


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 67 (24.204)

*15 aprel 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycanın pravoslav xristian icmasına



Hörmətli həmvətənlər!

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illərboyu burada məskunlaşıb yaşayan hər kəs üçün doğma Vətən olan Azərbaycanda bu gün də müxtəlif etnik qrupların və etiqadların nümayəndələri sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Ölkəmizdə xalqlararası dostluğun və dinlərarası harmoniyanın qorunması, yüksək birgəyaşayış mədəniyyətinin və demokratik ictimai-mənəvi dəyərlərin təşviqi, qlobal miqyasda sivilizasiyalararası dialoqun təbliği mütərəqqi milli-tarixi ənənəyə əsaslanan dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir.

Dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınan müasir Azərbaycan Respublikasında bütün etnik və dini azlıqlara, o cümlədən xristian icmasına öz milli-mənəvi dəyərlərindən lazımınca faydalanmaq, adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, belə demokratik və tolerant mühitdə fəaliyyət göstərən pravoslav inanclı vətəndaşlarımız digər etiqadların mənsubları ilə birgə ictimai-siyasi həyatımızın bütün sahələrində yaxından iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz həmvətənlər!

Pasxa bayramı dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzidir. Bu əziz gün münasibətilə bir daha hər birinizə səadət, ailələrinizə xoş bayram ovqatı və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 aprel 2023-cü il*

## Nazirlər Kabinetində aprel ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mövcud olan yay otlaqlarından istifadə üçün müraciət edən fermer və sahibkarlar arasında bölgüsü, yaylaq sahələrinə köçürülməsi işinin təşkili, yarana biləcək çətinliklərin həll edilməsi və otlaqlardan səmərəli istifadəyə nəzarəti təmin etmək məqsədilə komissiya yaradılmışdır.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2023-cü il 4 aprel tarixli Qərarı ilə "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında", "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında", "Bir sıra təsərrüfathesablı dövlət müəssisələrinin və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan bir sıra hüquqi şəxslərin ştat cədvəlinin təsdiq edilməsi haqqında", "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın təsdiq edilməsi və "Naxçıvan Aqrolizinq"Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında" qərarları ləğv edilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğun olaraq həyata keçiriləcəkdir.

Həmçinin Nazirlər Kabinetinin 2023-cü il 5 aprel tarixli Qərarı ilə "Qiymətli metalların, onlardan hazırlanan məhsulların, habelə qiymətli metal qırıntılarının və tullantılarının analizinin və ekspertizasının keçirilməsi halları və Qaydaları"nın təsdiq edilməsi haqqında", "Qiymətli metallardan hazırlanmış məhsulların, o cümlədən zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması Qaydaları"nın və "Əyar damğalarının növləri və quruluşu"nun təsdiq edilməsi haqqında", "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" qərarları ləğv edilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına uyğunlaşdırılmışdır.

Eyni zamanda Nazirlər Kabinetinin 2023-cü il 6 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında", eləcə də "Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" qərarlarında dəyişikliklər edilərək muxtar respublika dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin, həmçinin dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşlarının sxemi yeni redaksiyada təsdiq edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanlarına işə qəbul Qaydaları" və "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin iş qaydası"nın təsdiq edilməsi haqqında" Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə işə qəbul artıq Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən deyil, Naxçıvan Muxtar Respublikasının dövlət teleradio və mətbuat orqanları tərəfindən həyata keçiriləcəkdir.

Nazirlər Kabinetinin 2023-cü il 14 aprel tarixli Qərarı ilə "Xarici donorlar tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nın təsdiq edilməsi barədə Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən qrant vermək hüququnun əldə edilməsi üçün tələb olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı***

## Səfərbərlik Xidmətinin Naxçıvan üzrə baş idarəsinə rəis təyin olunub

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinə rəis təyin olunub.

Bu barədə Dövlət Xidmətinin rəisi general-polkovnik Arzu Rəhimov əmr imzalayıb.

Əmrə əsasən bu vəzifəyə polkovnik Elmar Tağıyev təyinat alıb. O, bundan əvvəl SHXÇDX-nin Katibliyinin rəisi olub.

Qeyd edək ki, Prezident cənab İlham Əliyevin aprelin 8-də imzaladığı fərmanla Naxçıvan Muxtar Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ləğv edilib və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsi yaradılıb.

**"Şərq qapısı"**

## Muxtar respublikada torpaqların su təminatının yaxşılaşdırılması işləri davam edir

*Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq cəmiyyətin tabe idarələri tərəfindən ilin əvvəlindən tərtib olunmuş təmir qrafikinə əsasən yanvar-mart ayları ərzində kanallarda, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işləri davam etdirilmiş, su anbarlarına suyun yığılması nəzarətdə saxlanılmışdır. Belə ki, muxtar respublika ərazisində olan su anbarlarına 2023-cü ilin yanvar-mart ayları ərzində su ehtiyatının toplanılması işləri davam etdirilmiş və mart ayının sonuna sututarlara 121,93 milyon kubmetr su yığılmışdır.*

2023-cü ilin yanvar-mart ayları ərzində 1 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmiş, 51,4 kilometr beton və torpaq kanal, 62,68 kilometr ara arxlar, 5,7 kilometr kollektor lildən təmizlənmiş, 0,99 kilometr içməli su, 0,17 kilometr kanalizasiya, 0,09 kilometr yeni kaptaj xətləri çəkilmiş, 3,78 kilometr mövcud içməli su, 0,43 kilometr kanalizasiya, 5,02 kilometr suvarma boru və 6,46 kilometr təzyiqli boru xətlərində, 0,44 kilometr kaptajlarda, 0,1 kilometr açıq drenajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir. Babək rayonunda Sirab Su Anbarına sugətirən kanalın 20 metr hissəsi beton plitələrlə üzlənmiş, Kəngərli rayonunda mövcud olan sututarlarda lildən təmizlənmə işləri başa çatdırılmışdır.



Torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Şərur rayonunda Xələc kollektorunda 5,6 kilometr, Sədərək rayonunda Heydərabad-Şiraxı kollektorunda 0,1 kilometr lildən təmizlənmə işləri aparılmış, Ordubad rayonunun Dırnis kəndi ərazisində isə 0,1 kilometr açıq drenaj xətti təmir olunmuşdur. Görülən işlər nəticəsində Şərur rayonunda 66 hektar, Sədərək rayonunda isə 0,5 hektar olmaqla, ümumilikdə, 66,5 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Muxtar respublikada əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün yeni içməli su xətləri çəkilmiş, mövcud xətlərdə təmir-bərpa işləri yerinə yetirilmişdir. Babək rayonunda 0,91, Şahbuz rayonunda isə 0,08 kilometr içməli su xətti çəkilmiş, Şərur rayonunda 0,61, Babək rayonunda 0,82, Culfa rayonunda 0,67, Ordubad rayonunda 1,6, Kəngərli rayonunda isə 0,09 kilometr mövcud içməli su xətlərində təmir-bərpa işləri aparılmışdır.

Şərur rayonunun Tənənəm kəndinin suvarma boru xətlərini qidalandıran, uzunluğu 86 metr yeni kaptaj tikilmiş, Babək rayonunda Gülşənabad, Xalxal, Payız, Kültəpə kəndlərinin və Nehrəm qəsəbəsinin kaptajlarında 290, Culfa rayonunda Bənəniyar və Əbrəqunus kənd kaptajlarında 45, Ordubad rayonu, Xanağa kənd kaptajında isə 100 metr təmir-bərpa işləri aparılmışdır. Suvarma mövsümünə hazırlıq məqsədilə təmirə ehtiyacı olan suvarma boru xətlərində təmir-bərpa işləri aparılmış, həmçinin nasos stansiyalarında və təzyiqli boru xətlərində cari və əsaslı təmir işləri davam etdirilmişdir.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularına və Culfa rayonunun Bənəniyar kəndində içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 1 ədəd subartezian quyusuna, ümumilikdə, 8 ədədinə yeni nasos quraşdırılmaqla 116 ədədi təmir olunmuşdur. Cəmiyyətin Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyuların Təmiri İdarəsinin təmir sexi tərəfindən 5 ədəd nasos rotoru, 30 ədəd su sayğacı təmir edilmiş, 104 ədəd nasos hissəsi və 1 ədəd siyirtmənin başlıq hissəsi hazırlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Vətənpərvər və humanist ziyalı, böyük alim, görkəmli akademik Zərifə xanım Əliyevanın parlaq xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq

*Oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin tibbi elmi irsi və fəaliyyəti, eləcə də onun həyat yolu hər bir Azərbaycan vətəndaşı, alimi və həkimi üçün mənəviyyat dərsi, kamillik məktəbi olub. Muxtar respublikada oftalmologiya üzrə həkimlər də, sözsüz ki, öz fəaliyyətlərində görkəmli alimin ərməğan qoyduğu göz xəstəlikləri elminin sirlərindən bəhrələnir, yüksək səviyyədə tibbi bacarıqlarını nümayiş etdirirlər. Bu gün Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Naxçıvan Diaqnostika Müalicə Mərkəzində ən müasir avadanlıq və texniki baza ilə təmin olunmuş kabinələrdə mütəxəssis oftalmoloq həkimlər tərəfindən vətəndaşlara yüksək səviyyədə tibbi xidmət göstərilir. Naxçıvanda ən son üsullara cavab verən göz xəstəliklərinin müayinə və müalicələri ilə yanaşı, cərrahi əməliyyatlar uğurla nəticələnir.*



Bu gün muxtar respublikada səhiyyənin bütün istiqamətlərində, xüsusilə də oftalmologiya sahəsində bir çox yeniliklərə imza atılmış, muxtar respublikaya dəvət edilən peşəkar oftalmoloqlarla aparılan müzakirələrdə, regional konfranslarda əsas məqsəd kimi oftalmologiyanın beynəlxalq standartlara uyğunlaşdırılması diqqətdə saxlanılmışdır. Mütəmadi olaraq Milli Oftalmologiya Mərkəzinin professor həkim heyətinin muxtar respublikada seminar və konfranslar təşkil etməsi, müayinələrin və əməliyyatların aparılmasında iştirak etməsi yerli oftalmoloqların bu sahədə tibbi biliklərinin təkmilləşməsində əvəzsiz rol oynamışdır. Görkəmli alimin əziz xatirəsinə həsr edilmiş Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin birgə təşkilatçılığı ilə müasir oftalmologiya sahəsində olan problemlər və əldə olunan uğurların müzakirəsinin aparılması və regionlarda oftalmologiyanın problemlərini öyrənməklə qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına nail olmaq məqsədilə Naxçıvan Muxtar Respublika Xəstəxanasında Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin X Regional Konfransının keçirilməsi və həmin konfrans zamanı aksiya çərçivəsində 101 nəfərin müayinə olunması da Naxçıvanda oftalmologiya sahəsində uğurlu nailiyyətlərdən biri olmuşdur.

Bu il dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 100, əbədiyyətə qovuşmasının 38-ci ildönümüdür. Tibb elminin inkişafına, xüsusən də oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə tanınan akademik Zərifə xanım Əliyeva Azərbaycanda oftalmologiya elminin inkişafına mühüm töhfələr vermişdir.

Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində görkəmli alim, Əməkdar həkim, professor Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyeva mənalı ömür yolu keçmişdir. Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra oftalmoloq ixtisasını seçmişdi. Sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktik vərdişlərə yiyələnmiş, oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçməyərək Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə əzm və iradə ilə çalışmışdır.

Ötən əsrin ortalarında Azərbaycanda traxoma xəstəliyi ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı dövr gözləyirdi. Belə bir acınacaqlı vəziyyət tək Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyəcan siqnalının çalınmasına əsas yaratmışdı. Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini başa vuran gənc həkim Zərifə xanım Əliyeva 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyar seminarlarda iştirak etmiş, bu sahədə əldə etdiyi elmi və praktik nailiyyətlərin tətbiqinə nail olmuşdu. Gənc alim 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Həmin illərdə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Alim-oftalmoloqların yüksək qiymətini almış dissertasiya işi oftalmologiyanın bu sahəsində ozamankı Sovetlər Birliyi məkanında ilk işlərdən idi. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmiş və o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir. Çətinliklərdən qorxmayan, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərən görkəmli alim tədqiqatlarını rahat kabinetlərdə aparmırdı. O, Azərbaycanın rayonlarını kəndbəkənd gəzir, insanları maarifləndirirdi. O vaxtlar Zərifə xanım Əliyevaya dünya şöhrəti gətirən görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası Elmi-Tədqiqat İnstitutunda yox, məhz istehsal müəssisəsində – Bakı Məişət Kondisionerləri Zavodunda yaradılmışdı. 1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuş, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibbi kadrların hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Görkəmli akademikin elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və sair əsərləri bu qəbildəndir. Zərifə xanım çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O onlarla elmlər doktoru və elmlər namizədinin elmi məsləhətçisi və elmi rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika "Bilik" Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanımın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, dərslik və dərs vəsaitlərində, 160-dan çox elmi işdə, bir ixtira və 18 səmərələşdirici təklifdə öz əksini tapmışdır. Bu böyük alimin ömrüboyu yaratdığı, lakin heç yerdə çap olunmayan bir kitabı da var: bu heç bir dərsliyə, yaxud monoqrafiyaya sığmayan həyat kitabıdır. Zərifə xanım Əliyeva yaşadığı ömrə təkcə yaxşı həkim olmağı sığdırmamışdır. O heç kəsin dərdinə biganə qalmayan qayğıkeş insan, vəfalı ömür-gün yoldaşı, mehriban ana idi.

Akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi daim ehtiramla yad olunur. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl insana olan ehtiram və məhəbbətin tükənməz təzahürüdür. Görkəmli akademikimiz özünün səmimiliyi, xeyirxahlığı, insansevərliyi, vətənpərvərliyi, bəşəri duyğuları ilə xalqımızın qəlbində əbədi yaşayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ermənistan tərəfindən saxlanılan Azərbaycan hərbi qulluqçularına qarşı işgəncə və qeyri-insani rəftar beynəlxalq cinayətdir

Uzun illərdən bəri qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürən, işğalçılığı dövlət siyasətinin əsas prioritetinə çevirən, Azərbaycan xalqına qarşı silsilə soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, etnik təmizləmələr törədən Ermənistan nümayişkaranə şəkildə beynəlxalq insan hüquqları və beynəlxalq humanitar hüququn normalarını kobud formada pozur. Bunun bariz nümunəsi isə erməni tərəfinin əsir və girov götürülmüş şəxslərlə davranışıdır.

Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycanı bütün dünyada qalib dövlət, xalqımızı isə məğrur xalq kimi tanıdan 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbənin bu münaqişəni başa çatdırmasına baxmayaraq, Ermənistan tərəfindən əsir götürülmüş hərbi qulluqçulara qarşı işgəncə və qeyri-insani rəftar beynəlxalq cinayətdir.

Aprelin 10-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu istiqamətində əlverişsiz hava şəraitində məhdudgörmə səbəbindən sərhəd ərazisində istiqaməti itirərək Ermənistan tərəfindən saxlanılan Azərbaycan hərbi qulluqçusunun mediada yayımlanan video və fotolarında beynəlxalq sənədlərə zidd olaraq işgəncə və digər qeyri-insani hərəkətlərə məruz qalması aydın şəkildə öz təsdiqini tapır.

Bu fakt Ermənistanın beynəlxalq hüquqa saygısızlığının nümunəsi, hərbi əsirlər və girov götürülmüş şəxslərlə qəddar və qeyri-insani davranışıdır.

"Beynəlxalq humanitar hüququn təməlini təşkil edən və 7 iyun 1993-cü ildə Ermənistanın da qoşulduğu "Hərbi əsirlərlə rəftar haqqında" III Cenevrə konvensiyasının qeyd edilən şəxslərlə dəqiq hüquqi davranış qaydalarını müəyyən etməsinə baxmayaraq, döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərlə bütün hallarda insani rəftar edilməlidir və hərbi əsirlər hər zaman, xüsusən zorakılıq əməlləri, hədələnməkdən müdafiə olunmalıdırlar.

Baxmayaraq ki, III Cenevrə konvensiyasının 13-cü maddəsi hərbi əsirlərin ölümünə səbəb olan və ya sağlamlığı üçün ciddi təhlükə yaradan hərəkətləri və ya hərəkətsizliyi birmənalı olaraq qadağan edir, erməni tərəfi isə əsir və girovlara qeyri-insani münasibət bəsləyərək onları işgəncələrə məruz qoyur. Bu cür hərəkətlər beynəlxalq humanitar hüququn ciddi pozuntusu olaraq müharibə cinayətləri kimi qiymətləndirilir və həm dövlətdaxili müstəvidə, həm də beynəlxalq səviyyədə cinayət məsuliyyətinə səbəb olur.

Erməni tərəfinin hərbi əsirlər və girovlarla davranışı Cenevrə konvensiyalarına 8 iyun 1977-ci il tarixli I saylı Əlavə Protokolun 43-cü maddəsində nəzərdə tutulmuş bütün kateqoriya müharibə cinayətlərini özündə cəmləşdirir. Təəssüf ki, hətta beynəlxalq cinayətlərə görə məsuliyyətin həyata keçirilməsində belə qlobal səviyyədə ikili standartlar hökm sürür və bunun nəticəsində Azərbaycan ərazisində soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törətmiş canilərin bəziləri hələ ki məsuliyyətdən boyun qaçırmağa müvəffəq olur. Ancaq beynəlxalq qanunları pozan cinayətkar erməni millətçiləri unutmasın ki, bir gün onlar ədalət mühakiməsi qarşısında cavab verəcəklər. Ermənistan-Azərbaycan münaqişəsinin gedişində beynəlxalq humanitar hüquq normalarını və prinsiplərini pozan ermənilərin layiq olduqları cəzalara məhkum edilmələri üçün bütün tədbirlər görüləcəkdir.

Ermənistanın məkrli siyasəti haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi: ***"Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar olsun ki, bu onlar üçün dərs olmadı... Qeyd etdiyim kimi, onlar öz cəzalarını alıblar və alacaqlar"*** fikri Azərbaycan xalqının iradəsini və ölkəmizin qətiyyətli mövqeyini göstərməkdədir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası əsir düşmüş hərbi qulluqçular və onların ailə üzvləri ilə bağlı beynəlxalq hüquq normaları və milli qanunvericiliyin tələblərinə müvafiq bütün zəruri tədbirləri həyata keçirir. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar yaradılan Dövlət Komissiyası qeyd edilən şəxslərin Vətənə qaytarılması, əsirlikdə saxlanılan Azərbaycan vətəndaşlarının hüquqlarının müdafiəsinin təmin edilməsi, beynəlxalq hüququ kobud şəkildə pozan Ermənistanın qeyri-insani hərəkətlərinə dünya birliyinin, beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin diqqətinin cəlb edilməsi istiqamətində bütün lazımi tədbirləri görür.

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*Dövlət proqramı icra olunur*

# Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alması yüksəkixtisaslı kadr hazırlığına töhfəsini verəcək

Sürətlə dəyişən, yenilənən dünyamız davamlı və hərtərəfli inkişafın təmin edilməsi üçün bilik iqtisadiyyatının, innovasiya cəmiyyətinin, rəqabətə davamlı yüksəkixtisaslı insan kapitalının formalaşdırılmasını qarşıya əsas məqsəd kimi qoyur. Məhz ölkəmizdə son illərdə reallaşdırılan təhsil siyasətinin əsasında da daha keyfiyyətli insan kapitalının formalaşdırılması sahəsində Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqelərinin əhəmiyyətli şəkildə yaxşılaşmasına şərait yaradılması, əmək bazarında tələb olunan ixtisas sahələri üzrə peşəkar kadrların hazırlanması dayanır. Bu mənada, “Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 sentyabr tarixli Sərəncamının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Mühüm dövlət sənədi əsasında hazırlanan “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın icrası ən müasir təcrübə və biliklərin inteqrasiyasına əlverişli zəmin yaratmaqla ölkəmizin tərəqqisinə töhfə baxımından mühüm vədlər verir.

Dövlət proqramının müddəalarına nəzər yetirdikdə aydın olur ki, əsas məqsəd gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək, yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verəcək rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Proqramın başlıca fəaliyyət yönləri sırasında prioritet istiqamətlər üzrə ixtisas sahələrinin, prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının, Dövlət proqramında iştirakın seçim meyarlarının və prosedurlarının, xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı qaydaların müəyyən edilməsi, Dövlət proqramı məzunlarının məşğulluğunun təmini imkanlarının yaradılması nəzərdə tutulub.



Beşillik proqram üzrə hər il 400 gəncin xarici ölkələrə təhsil almağa göndərilməsi planlaşdırılıb. Qəbul zamanı üstünlük magistr təhsil pilləsinə veriləcək. Hər il xaricdə oxumağa gedəcək 400 nəfərin 325-i magistr, 75-i isə bakalavr təhsili üzrə nəzərdə tutulacaq. Gənclər 15 prioritet istiqamət üzrə xaricdə təhsil ala biləcəklər. Prioritet sahələr isə belə müəyyənləşdirilib: informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin təhlili, fundamental və tətbiqi elmlər, təhsil, ətraf mühit, aviasiya və kosmos, dövlət idarəetməsi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, kənd təsərrüfatı. 2022-2026-cı illəri əhatə edən Dövlət proqramı tam təqaüd verir və təhsil, viza, təhsil aldığı ölkədə qeydiyyat, aylıq yaşayış, tibbi sığorta xərcləri, beynəlxalq nəqliyyat, bank və plastik kart xərclərini qarşılayır. Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində bakalavr təhsili üçün meyarlar da müəyyənləşib. Bu təhsil pilləsi üzrə seçim zamanı üstünlük beynəlxalq olimpiada qalibi olan gənclərə veriləcək. Bu şəxslər universitetə müraciət sənədini, dil sertifikatını və digər sənədləri təqdim etməklə müsahibədənkənar, birbaşa xaricdə təhsil alma şansı qazanacaqlar. Digər iştirakçılardan fərqli olaraq beynəlxalq olimpiada qaliblərindən Dövlət İmtahan Mərkəzinin imtahan nəticəsi tələb edilməyəcək. Müraciətçi 11-ci sinifdə olmalı və ya tam orta təhsil almalıdır. Xarici ali təhsil müəssisəsinə qəbul olunmaq, ixtisasın Azərbaycan Elm və Təhsil Nazirliyinin müəyyənləşdirdiyi prioritet sahəyə və ali məktəbə uyğunluğu, xarici ali təhsil müəssisəsinin tədris dilini ən azı C1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMƏR) malik olmaq da ümumi meyarlara aiddir. Həmçinin müraciətçi tələbə qəbulu üzrə aparılan imtahanlar çərçivəsində texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah və xidmət, əsas (baza ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 400, digər sahələr üzrə ən azı 550 bal toplamalıdır. Proqrama müraciətlər elektron ərizə sistemi vasitəsilə həyata keçirilir. Lakin elektron ərizəni doldurmağa başlamazdan əvvəl müvafiq təhsil səviyyəsi üzrə tələb olunan bütün sənədlərin elektron surətlərini hazırlamaq tövsiyə olunur.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin bütün sahələrlə bərabər təhsilə göstərdiyi diqqət və qayğısı nəticəsində muxtar respublikada da təhsilin səviyyəsi xeyli yüksəldilib. Şagirdlərin keyfiyyətli təhsili üçün istər müasir təlim metodlarından istifadə, istərsə də onların beynəlxalq müsabiqə və olimpiadalarda iştirakı, uğur qazanmaları məktəblilərdə dünyanın beynəlxalq nüfuzlu univeristetlərində təhsil almalarına maraq oyadıb. SAT və IELTS imtahanlarından yüksək nəticə göstərərək Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin məzunu Vəli Mustafasoylu 2021-ci ildən Amerikanın Miçiqan Ştat Universitetində və Gettysburq Universitetində Mühəndislik, Şərur şəhər 2 nömrəli tam orta məktəbin məzunu Sevinc Mirzəyeva isə 2020-ci ildən Nyu York, Cenevrə Hobart, Vilyam Smit Kollecləri ali təhsil ocağında Beynəlxalq əlaqələr ixtisasında təhsil alır.

Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi istedadlı, intellektual səviyyəsi yüksək olan şagirdlərin xaricdə təhsil almaları məqsədilə təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirib. Görüşdə proqramın mahiyyəti, gələcəkdə gənclərin əmək bazarında iş tapmaları və ölkəmizdə yüksək potensiallı kadr tərkibinin zənginləşdirilməsinin əhəmiyyəti vurğulanıb. Bunun üçün tədris ilinin əvvəlindən həmin şagirdlərin beynəlxalq səviyyəli dil proqramları üzrə əlavə məşğələlərə cəlb olunmasının təhsil müəssisələri tərəfindən diqqətdə saxlanılması tapşırılıb. Həyata keçirilən maarifləndirmə işlərinin nəticəsidir ki, bu günə kimi muxtar respublikada IX siniflər üzrə 7, X siniflər üzrə 11, XI siniflər üzrə isə 20 olmaqla, ümumilikdə, 38 şagird proqrama cəlb olunub. Həmin şagirdlərdən 13-ü artıq keçirilən imtahanlarda iştirak edib, 2-si IELTS, 2-si SAT, 3 -ü isə həm IELTS, həm də SAT üzrə keçid balını toplayıb. Ümid edirik ki, bu gənclərimiz növbəti tədris illərində Dövlət proqramı ilə müəyyənləşdirilən əsas prioritet istiqamətlər üzrə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olacaq və Dövlət proqramından yararlanacaqlar. Qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir, gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrlar kimi ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

✍ **Nail ƏSGƏROV**

# Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə təlim keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən “Heydər Əliyev İli” ilə əlaqədar qəbul olunmuş Tədbirlər Planına uyğun olaraq silsilə tədbirlərin keçirilməsi davam edir.

Növbəti belə tədbir Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrinin iştirakı ilə olub. Tələbələr aprelin 10-dan 14-dək davam edən layihə çərçivəsində Ali Məhkəmədə təlimə cəlb ediliblər. Həyata keçirilən layihənin məqsədi tələbələrə peşə vərdişlərini aşılamaq, gələcəyin hüquqşünaslarının biliklərini artırmaq, onlarda nəzəri biliklərin təcrübədə istifadəsi vərdişləri formalaşdırmaqdan ibarətdir.

Layihənin ilk günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Fərman Abbasov tərəfindən “Ümummilli Lider Heydər Əliyev və Məhkəmə Hüquq islahatları” mövzusunda təlim keçirilib, mövzu ətrafında tələbələrin ünvanladıqları suallar cavablandırılıb.

Növbəti gün tələbələr Ali Məhkəmənin müvafiq şöbələri ilə tanış olub, məhkəməyə daxil olan sənədlərin, cinayət, mülki, inzibati və sair işlərin, materialların qeydiyyatı, rəsmiləşdirilməsi, formalaşdırılması, göndərilməsi və vətəndaşların müraciətlərinə baxılması qaydaları haqqında məlumatlandırılıb.

Layihə çərçivəsində tələbələrə elektron sistemlərin tətbiqi və digər yeniliklər barədə məlumat verilib, onların məhkəmə iclaslarında iştirakları təmin edilib. Tələbələr arasında hüququn nəzəri problemləri üzrə debat təşkil olunaraq, qalib komanda müəyyənləşdirilib.

Layihənin sonunda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi tələbələrlə görüşüb. Görüş zamanı bildirilib ki, tədbirin keçirildiyi zaman, xüsusilə əlamətdardır, belə ki, bu il xalqımız Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu Öndər tərəfindən əsası qoyulan, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən hüquq islahatlarının ən vacib məqsədlərindən biri düzgün, bilikli və peşəkar hüquqşünasların yetişdirilməsi, onların hüquq sistemində layiqli yerlərini almasıdır. Qeyd olunub ki, gələcəkdə Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığın daha da genişləndirilməsi nəzərdə tutulub ki, bu da, öz növbəsində, tələbələrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində genişmiqyaslı layihələrə, təlimlərə və təcrübə proqramlarına qoşulmaq üçün geniş imkanlar yaradacaqdır.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri tələbələrə gələcək peşə həyatlarında müvəffəqiyyət arzu edib. Layihədə fəal iştirak edən tələbələrə sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Gənclərin şəxsi inkişafına və sosial aktivliyinə önəm verilir



Azərbaycanın gələcək inkişafı üçün zəmin və ən vacib insani yatırım strategiyası olan dövlət gənclər siyasəti ölkəmizdə uğurla icra olunmaqdadır. Dövlət siyasətinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında gənc nəslin sağlam həyat tərzinə cəlbi, onların vətənpərvər ruhda formalaşdırılması, müxtəlif sahələrdə inkişafı və uğurlu fəaliyyətinə nail olunması istiqamətində məqsədyönlü addımlar atılır. Ötən ay ərzində muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı, gənc nəslin sağlam və vətənpərvər ruhda formalaşdırılması, dünyagörüşlərinin zənginləşdirilməsi, onların cəmiyyətdəki fəallığını artırmaq, şəxsi inkişafına töhfə vermək, o cümlədən karyera yolunu istiqamətləndirmək məqsədilə bir sıra tədbirlər həyata keçirilib.

Gənclərin iştirakı ilə Dövlət Məşğulluq Agentliyi Mərkəzi Karyera filialının müdiri, karyera planlaşdırılması üzrə mütəxəssis Toğrul Ələkbərovun “Xaricdə təhsil və karyera inkişafı” mövzusunda təlimi, yaddaş və öyrənmə problemləri üzrə mütəxəssis Almaz Cabbarovanın “Beyinin inkişaf metodları və yaradıcı düşünmə” adlı seminarı təşkil olunub. Kitab müzakirələri çərçivəsində keçirilən növbəti toplantıda Paulo Koelyonun “Kimyagər” əsəri təhlil olunub. Ümumdünya Mülki Müdafiə Günü ilə əlaqədar olaraq Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənclər üçün göstərici məşğələ keçirilib. Gənc nəsil nümayəndələrini gənclərlə iş və idman sahəsində həyata keçirilən işlərlə, onlar üçün yaradılan şəraitlə tanış etmək və bu sferada iştiraklılığını, fəallığını artırmaq məqsədilə məktəblilərlə görüş keçirilib. Qardaş Türkiyəyə yollanan Azərbaycanın könüllü gənclərdən ibarət 100 nəfərlik heyətində yer alan “Naxçıvan könüllüləri” qrupu fəlakətin baş verdiyi bölgələrdə zərərçəkmişlərə yardım missiyasını tamamlayaraq Vətənə geri dönüb. Bundan başqa, könüllülərimiz 19-26 mart tarixlərində Naxçıvan şəhərində reallaşan “Novruz şəhərciyi”ndə təşkilati və sosial yönümlü fəaliyyətlə məşğul olublar. “Heydər Əliyev İli” ilə əlaqədar olaraq dahi şəxsiyyətin həyatı, fəaliyyəti, zəngin dövlətçilik tariximizin gənclər tərəfindən öyrənilməsi, onların vətənpərvərlik hisslərinin yüksəldilməsi məqsədilə Heydər Əliyev Muzeyinə ekskursiya təşkil olunub. “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında “Xəmsə” milli intellektual oyunu və “Sərhəd” hərbi-idman oyunu üzrə muxtar respublika birinciliyinin şəhər və rayonlar üzrə seçim mərhələləri reallaşıb. Daha bir hərbi hissədə gənclərin zabit və əsgərlərimizlə görüşü keçirilib. Şəhid ailələrinin ziyarət olunması ənənəsini davam etdirmək gənclərlə birgə növbəti səfər Kəngərli rayonuna olub. O cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə “Qəhrəmanlar unudulmur” adlı yeni videomateriallar hazırlanıb və sosial şəbəkələrdə yayımlanıb.

Hesabat ayı Naxçıvan idmanı üçün bir sıra hadisələrlə yadda qalıb. Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayev Naxçıvan boksçuları və məşqçilərlə görüşüb. Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini Məcid Seyidovun da iştirak etdiyi görüş zamanı məşq prosesi izlənilib, boksun inkişafı yönündə müzakirələr aparılıb. Naxçıvan Şahmat Mərkəzində reallaşan beynəlxalq reytinqli şahmat turniri də daxil olmaqla “Heydər Əliyev İli” ilə əlaqədar olaraq şəhər və rayonlarda Ümummilli Liderin xatirəsinə həsr olunmuş müxtəlif idman tədbirləri keçirilib. 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar olaraq yeniyetmələrin sərbəst güləş üzrə muxtar respublika birinciliyi, şahmat turniri, idman federasiyalarının idmançıları arasında qol güləşi üzrə birincilik, idman işçiləri arasında stolüstü tennis yarışı və müxtəlif idman növləri üzrə rayon (şəhər) birincilikləri reallaşıb.

Uzunoba Təlim-Məşq İdman Kompleksində 2010-cu il təvəllüdlü yeniyetmələr arasında “Heydər Əliyev İli”nə həsr olunmuş futbol çempionatı keçirilib, U-10, U-11, U-12 komandalarının turnirinə və U-13, U-14, U-15 komandalarının muxtar respublika çempionatına start verilib, Region Liqasında ikinci dövrə davam etdirilib. Futbol üzrə Azərbaycan I Divizionunda mübarizə aparan “Araz – Naxçıvan” Peşəkar Futbol Klubu növbəti turlarda “Kəpəz-2” (4:0), “Sumqayıt-2” (1:3) və “Turan-Tovuz-2” (5:6) üzərində inamlı qələbələr əldə edərək turnir cədvəlindəki liderliyini daha da möhkəmləndirib. Bakıda Əməkdar məşqçi Minbudaq Hüseynovun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə kadetlər arasında respublika turnirində Naxçıvan güləşçiləri 3 bürünc medal qazanıb. Bakı Gimnastika Arenasında keçirilən təlim-məşq toplanışında məşqçi Humay Qafarova da iştirak edib. Bundan başqa, məşqçinin rəhbərliyi ilə 5 azyaşlı gimnastımız “Gimnastika hamı üçün” idman növü üzrə Tbilisi Gimnastradasında qalib heyətlərdən biri kimi mükafatlandırılıb.

Qeyd edək ki, ötən ay ərzində bölgəmizdə “Heydər Əliyev İli”, Beynəlxalq Qadınlar Günü və Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbirlər, intellektual oyunlar, vətənpərvərlik mövzusunda film nümayişləri, müxtəlif idman növləri üzrə rayon (şəhər) birincilikləri və şəhidlərimizin xatirəsinə həsr olunmuş turnirlər təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Görkəmli akademikin adını daşıyan səhiyyə ocağında onun xatirəsi fəxarətlə yaşadılır



Akademik Zərifə xanım Əliyeva, rəssamı: Səyyad Bayramov

***Naxçıvan şəhərində yerləşən, görkəmli akademikin adını daşıyan Naxçıvan Şəhər Poliklinikasında hər dəfə olanda binanın birinci mərtəbəsində yerləşən muzeyi mütləq ziyarət edir, bu gözəl insanın, əziz, müqəddəs ananın büstü qarşısında dayanır, azad, bütöv Azərbaycanın övladı olaraq Onun ruhunu ehtiramla yad edirəm. Bəli, O, qarşısında baş əyməyə borclu olduğumuz Dahi Rəhbərimizə dayaq olan həyat yoldaşı, dünyaya siyasi iradə və əzmkarlığı ilə dərs keçən, azərbaycanlıların ayağına zorla yazılan məğlub xalq sözünü silməyə gücü yetən bir sərkərdə böyüdən anadır.***

Əllərinin şəfası, dərin savadı, xüsusilə də, incə qəlbi, şəfqət, sevgi dolu rəftarı ilə gözlərə nur bəxş edən bu nurlu insanın xatirəsini yaşadan muzeydə nümayiş olunan dəyərli eksponatlar görkəmli alimin keçdiyi şərəfli həyat yolundan xəbər verir. Muzey 1999-cu ildə yaradılıb. Həmin ilin oktyabr ayında Ümummilli Lider Heydər Əliyev Naxçıvanda səfərdə olarkən poliklinikaya gəlib. Muzeyin də ilk ziyarətçilərindən biri məhz Ulu Öndər olub, rəy kitabına aşağıdakı sözləri yazıb: ***"Mənim ömür-gün yoldaşım, mərhum Zərifə xanımın adını daşıyan poliklinika ilə tanış olmaq, onun xatirəsinə həsr edilmiş guşəni seyr etmək məni dərin hissiyyatlara gətirdi. Xatirimdən heç vaxt çıxmayan, mənim üçün çox əziz olan insanın həyat və yaradıcılığını əks etdirən bu guşə məni coşdurdu. Onlar hamısı onun insani keyfiyyətlərinə, böyüklüyünə, böyük elmi və həkimlik xidmətinə layiqli abidədir. Bu xeyirxah işdə zəhmət çəkənlərin hamısına təşəkkür edirəm".***

2012-ci il mayın 30-da Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası şəhərin mərkəzində yeni inşa olunmuş binaya köçürülüb. Prezident cənab İlham





Əliyev tibb müəssisəsinin açılışında iştirak edib. Köhnə binada olan muzey eksponatları buraya gətirilib. Səhiyyə ocağının birinci mərtəbəsinin foyesində Zərifə xanım Əliyevanın büstü qoyulub. Burada görkəmli akademikin həyat və fəaliyyətini əks etdirən maraqlı fotolar, həmçinin tanınmış insanların gözəl oftalmoloq-alim haqqında söylədikləri dəyərli fikirlər yer alır. Görkəmli akademik haqqında kitablar da böyük maraq doğurur. Burada onun gənclik, tələbəlik illərini və mehriban ailənin müxtəlif məqamlarını özündə əks etdirən rəsm əsərləri diqqəti çəkir. Tanınmış heykəltəraş Ömər Eldarovun nəfis şəkildə çap olunmuş "Elegiya" adlı illüstrasiyalı kitabı çox maraqlıdır. Bu nəşrdə tanınmış memarın Zərifə xanımın xatirəsinə ucaltdığı məzarüstü abidə barədə də geniş məlumat verilir. Rəy kitabını vərəqləyirik. Burada neçə-neçə tanınmış səhiyyə işçisinin görkəmli oftalmoloq haqqında yazdıqları ürək sözləri vardır. Fotoşəkillərdə isə Əliyevlər ailəsinin müxtəlif anlarının təkrarsız, bənzərsiz görüntüləri əks olunur.



Muzeyi ziyarət etdikdən sonra səhiyyə ocağı ilə tanışlıq qərarına gəldik. 50 ilə yaxındır ki, insanların sağlamlığı keşiyində dayanan həkim-terapevt ***Xuraman Hacızadə*** ilə həmsöhbət olduq. Ondan poliklinikanın tarixi haqqında məlumat aldıq. Bildirdi ki, bu səhiyyə ocağı 1921-ci ildə Naxçıvan şəhər xəstəxanasının nəzdində yaradılmış və ambulatoriya kimi fəaliyyətə başlamış, 1930-cu ildə isə



mərkəzi poliklinikaya çevrilmişdir. 1972-ci ildə isə şəhər xəstəxanasından ayrılaraq Naxçıvan şəhər poliklinikası kimi fəaliyyət göstərmişdir. Poliklinika 1990-cı ildən kollektivin tələbi nəzərə alınmaqla görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. 2012-ci ildə bu səhiyyə ocağı tamamilə yenidən qurulmuşdur. Poliklinikanın altımərtəbəli binasında yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi üçün hər cür şərait yaradılmışdır.

Həkim onu da qeyd etdi ki, bina zirzəmi qatı ilə birlikdə beş mərtəbədən ibarətdir. Poliklinikada iki terapiya, cərrahiyyə, rentgen, laboratoriya, ümumilikdə, beş şöbə fəaliyyət göstərir. Burada oftalmoloji, nevroloji, ginekoloji, fizioterapiya, stomatoloji, kardioloji, ultrasəslə müayinə, LOR, travmatoloji, yoluxucu xəstəliklər, profilaktik müayinə və herontoloji kabinələr vardır.

Digər müsahibim xəstəxananın həkim-oftalmoloqu ***Kamilə Orucəliyeva*** ilə söhbətimizdə o bildirdi ki, göz həkimləri gözəl insan, dünya tibb elminə əvəzsiz töhfələr vermiş akademik Zərifə Əziz qızı Əliyevadan dünən də öyrənib, bu gün də öyrənir. Onun dəyərli tədqiqat işləri gələcəkdə də hər bir oftalmoloq üçün nəzəri bilik və təcrübə rolu oynayacaqdır. Böyük akademikimizin Azərbaycan tibb elminə verdiyi töhfələr bu gün bir çox insanın həyatını xilas edir, gözlərinə nur verir. Bu gün hansı həkimi, tibb işçisini danışdırsaq, görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyeva haqqında həvəslə, qəlb açıqlığı ilə söhbət açır. Azərbaycan həkimləri Zərifə xanımın keçdiyi mənalı ömür yolunu özünə örnək bilir, onun tibb elminə gətirdiyi yenilikləri, qiymətli araşdırmalar nəticəsində yaratdığı yeni-yeni müalicə üsullarını öyrənirlər, məhz bu yolla xəstələri müalicə etməyə çalışırlar.

Tibb ocağından ayrılıram, binanın birinci mərtəbəsindəki muzeydə yer alan bu gözəl Azərbaycan anasının büstü önündə bir anlıq dayanır, öz-özümə deyirəm: "Ey qəhrəman Azərbaycan qadını, müqəddəs ana, sədaqətli ömür-gün yoldaşı! Bu gün hər bir həkim Sizin dəyərli tədqiqatlarınızdan istifadə edib neçə-neçə insanın gözlərinə nur bəxş edib. Sizin bu dövlət, bu Vətən qarşısındakı ən böyük xidmətiniz isə Vətənimizi yox olmaq təhlükəsindən xilas edib, yenidən ayağa qaldıran Ulu Öndərimizə layiqli həyat yoldaşı olub, azərbaycanlıları bütün dünyaya qəhrəman xalq kimi tanıdan Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev kimi bir oğul böyütməkdir. Bu xalq Sizin əziz xatirənizi daim minnətdarlıqla anacaqdır.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Sağlamlıq imkanları məhdud şəxslərə səyyar xidmətlər göstərilir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərə tibbi-sosial reabilitasiya xidmətləri göstərilir, onların zəruri sosial məsələlərinin həlli və vaxtaşırı



tibbi müayinədən keçmələri təmin edilir. Həmçinin muxtar respublikada dayaq-hərəkət sisteminin funksiyalarını itirmiş şəxslərin reabilitasiyası istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzinə müraciət edən vətəndaşlara müvafiq protez xidmətləri göstərilir, onlar ortopedik məmulatlarla təmin olunurlar. Bununla yanaşı, mərkəzin həkim heyəti və protez-ortoped mütəxəssisləri tərəfindən sağlamlıq imkanları məhdud şəxslərə səyyar xidmətlərin göstərilməsi də davam etdirilir.

Bu tədbirlərin davamı olaraq Kəngərli və Şərur rayonları ərazisində yaşayan, müxtəlif səbəblərdən mərkəzə gəlmək imkanı olmayan sağlamlıq imkanları məhdud şəxslərə Protez-Ortopedik Bərpa Mərkəzinin səyyar xidmətləri göstərilib. Xidmət zamanı məhdud fiziki imkanlı şəxslərdən protez və ortez sifarişləri qəbul edilib, zəruri hallarda protezlər təmir olunub. Eyni zamanda müvafiq kateqoriyadan olan şəxslər texniki və köməkçi reabilitasiya vasitələri ilə təmin edilib.

Sağlamlıq imkanları məhdud şəxslər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikanın yaşıllıq sahələri genişləndirilir

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Bioresurslar İnstitutunun (Naxçıvan) birgə tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının əsas istiqaməti muxtar respublikamızda mövcud təbii meşələrdə, talalarda və seyrək yerlərdə əsas üstünlük quraqlığadavamlı növlərə verilməklə elmi əsaslandırılmış bərpa işlərinin aparılması, təbii bərpaya kömək məqsədilə zəruri tədbirləri görməkdir.



Tədbirlər planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Şahbuz rayonu, Biçənək meşəsindəki meşə talalarında əvvəlcədən şırım açılmış 5 hektar sahədə toxumla əkin aparılmışdır. Əkin zamanı ərazinin iqlim şəraitinə uyğun olan ağac və kol bitkilərinin toxumlarına üstünlük verilmişdir.

Yemişan, həmərsin, alça, badamça, o cümlədən sınaq məqsədilə sumaq toxumları əkilmişdir. Bu kimi tədbirlər meşə ilə örtülü olmayan torpaqlarda meşələrin bərpa olunmasında, yaşıllıq sahələrinin genişləndirilməsində, torpağın münbitliyinin qorunmasıda, həmçinin külək və su eroziyasının qarşısının alınmasında mühüm rol oynayır. Toxum əkini tədbirləri digər ərazilərdə də davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Əmlakı qəsdən məhvetmə və ya zədələmə hansı hallarda cinayət məsuliyyətinə səbəb olur?***

***Cavab:*** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 186-cı maddəsinə əsasən özgənin əmlakını qəsdən məhvetmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda (beş min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan məbləğdə) ziyan vurmaqla törədildikdə cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməllər, zərərçəkmiş şəxsə külli miqdarda (əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğdə) ziyan vurmaqla törədildikdə, yandırmaqla, partlatmaqla və ya başqa ümumi təhlükəli üsulla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd olunan əməllər, xüsusilə külli miqdarda (beş yüz min manatdan yuxarı olan məbləğdə) ziyan vurmaqla törədildikdə yeddi ildən on ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### İtmişdir

Aslanov İmadəddin Fəxrəddin oğluna Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilən 150 seriya nömrəli xidməti vəsiqə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 277